MƏDƏNİYYƏT

# "Tələt Qasımov özünəməxsus insan idi"

## RAMİZ QULİYEV: "XANƏNDƏ YADDAŞLARDA QALACAQ"

ÖTƏN həftə Azərbaycan mədəniyyətinə iki böyük ağır itki üz verdi. Onlardan biri də xalq artisti Tələt Qasımovdur. 1933-cü il iyunun 21-də Bakı şəhərində dünyaya göz açan Qasımov Tələt Məmmədağa oğlu erkən yaşlarından musiqiyə həvəs göstərərək, əvvəlcə dini musiqiyə çox meyl edib və mərsiyəxan olub. Sonradan isə xanəndəlik sənətinə gəlib. *O, Zülfi Adıgözəlov, Hacıbaba Hüseynov kimi ustad sənətkarlardan muğamın sirrlərini dərindən mənimsəyərək, onların ənənələrini davam etdirib. İllər keçdikcə, xanəndə kimi sənətini təkmilləşdirən Tələt Qasımov öz dəst-xətti ilə tanınıb. Onun ifasında "Rast", "Şur", "Seygah-Zabul" muğam-dəstgahları, "Şüştər" təsnifləri Azərbaycan Dövlət Televiziya və Radiosunun Fondunda saxlanılır. Muğam sənətinin mahir ifaçılarından olan Tələt Qasımovun milli musiqi mədəniyyətimizin inkişafında müstəsna xidmətləri vardır.* Ustad sənətkarlardan dərs alan T.Qasımov muğam ifaçılığı ənənələrini ömrünün sonunadək müvəffəqiyyətlə davam etdirib. "Rast", "Zabul segah", "Şur", "Humayun" muğamlarını, habelə Azərbaycan xalq mahnılarını özünəməxsus tərzdə ifa edən sənətkar musiqisevərlərin məhəbbətini qazanıb. Ustad sənətkarın ifa etdiyi muğamlar musiqi mədəniyyəti salnaməsinə daxil olub. Sənətkarın ölümündən kədərləndiyini bildirən sənət və yaxın dostu tarzən, xalq artisti Ramiz Quliyev Tələt Qasımovla olan xatirələrini "Üç nöqtə"ylə bölüşdü: "Tələt mənə əziz dost, qardaş olub. Bakıya gəlişimdə ilk dostlarımdan olub. Tələt Qasımovla 1964-cü ildə Filarmoniyaya işə girən gündən dünyasını dəyişən günə qədər yaş fərqimiz çox olmağına baxmayaraq dost olmuşuq. Dostluqda, sənət yoldaşlığında hər zaman sədaqətli idi. Mən onun yoxluğu ilə bu gün də barışa bilmirəm. Tələt Qasımov sənətdə olduğu kimi həyatda da təmiz, etibarlı insan idi. Tez-tez zəngləşərdik, görüşərdik. Mən xarici ölkədən gələndə, hansısa bir uğurum olanda ilk zəng edənlərdən biri Tələt Qasımov olurdu. *O sözünə bütöv adam idi. Sənətdə öz ifa tərzi olduğu kimi, həyatda da özünəməxsus əməlləri ilə seçilirdi. Dara düşən adam olanda ona kömək etməyə çalışırdı. Bir dəfə Cənub bölgəsinə hörmətli şəxslərdən birinin övladının toyuna getmişdik. Tələt mənə zəng edib toya getməyi təklif etdi.* O hər toya getmirdi. Bir yerdə getdik. Bir də gördük ki, getdiyimiz evdə həyət adamla doldu. Ev yiyəsi gəlib dedi ki, Tələt müəllim, bu adamlar sizi görməyə gəlib. Bəlkə özünüz çıxıb görüşəsiniz. Hətta yaxın kəndlərdə öz evində toy olanlar belə toylarını saxlayıb Tələtlə görüşməyə gəlmişdilər".



*Ramiz Quliyev deyir ki, Tələt Qasımovu son dəfə xəstə olanda ziyarət edib:* "Evlərində o qədər adam var idi ki, elə bil böyük məclisdi. Tələt dedi ki, ay Ramiz maşallah hər gün qonaqlarımız belə çox olur. Dünyasını dəyişməmişdən 10 gün qabaq zəng edib hal-əhval tutdum. Dedi ay Ramiz çox sağ ol. Allah səni saxlasın. Dedim nə olub? Dedi televiziyada mənim də adımı çəkmisən. Televiziyada bir aparıcı mənə sual vermişdi ki, muğam ifaçılarından kimləri dinləyirsiz? Mən də həmin ifaçılar arasında Tələtin də adını çəkmişdim. *Dedim Tələt sən buna layiqsən. Allaha bağlı adam idi. Ona görə də onun qismətində müqəddəs Ramazan ayının qədr gecəsində dünyasını dəyişmək var imiş. Amma o sadəcə olaraq dünyasını dəyişdi. Azərbaycan musiqisi səsləndikcə Tələt Qasımov yaddaşlarda qalacaq".*